# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№368/11** **30 sentyabr 2024-cü il**

## “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın nəşri barədə

Azərbaycan Respublikası Prezidentinin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində qabaqcıl dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) və Auditorlar Palatası arasında 2023-cü il dekabrın 1-də imzalanmış Anlaşma Memorandumuna əsasən birgə əməkdaşlıq çərçivəsində, habelə Palatanın 2024-cü il üzrə iş planının 7.5-ci “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” və 7.6-cı “Əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi” bəndlərinə uyğun olaraq hazırlanmış “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ölkə auditorları üçün mühüm əhəmiyyətə malik işçi sənəd olmasını nəzərə alaraq və həmin sənədi müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimat bəyənilsin və nəşri məqsədəmüvafiq hesab edilsin.
2. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, on gün müddətində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın 300 (üç yüz) nüsxədə nəşr olunması təmin edilsin.
3. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki həftə müddətində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın aidiyyəti dövlət qurumlarına, habelə Azərbaycan Respublikası Prezidentinin kitabxanasına, Auditorlar Palatasının əməkdaşlıq etdiyi qurumlara, Palatanın üzvləri və əməkdaşlarına siyahı əsasında paylanması təmin edilsin.
4. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı materialın tətbiq edilməsini təmin etsinlər.
5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2024-cü ilin IV rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimata dair seminarın keçirilməsi təmin edilsin.
6. Bu qərarın və Təlimatın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**